Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) cənabətdən qüsl aldıqda əllərini yuyardı, ardınca namaz üçün aldığı kimi dəstəmaz alardı, sonra bütün bədəninə su tökərdi

Möminlərin anası Aişədən (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) cənabətdən qüsl aldıqda əllərini yuyardı, ardınca namaz üçün aldığı kimi dəstəmaz alardı, sonra bütün bədəninə su tökərdi, başının dərisinə suyun çatdığını yəqin edənə qədər əliylə suyu saçların dibinə çatdırardı, ardınca üzərinə üç dəfə su tökər, sonra bədəninin qalan hissəsini yuyardu. Dedi: Mən və Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bir qabdan qüsl alardıq, birlikdə ondan su götürərdik.

[Səhih] [Əl-Buxari rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) cənabətdən qüsl almaq istəyəndə, əllərini yumaqla başlayardı. Sonra namaz üçün dəstəmaz aldığı kimi dəstəmaz alar, daha sonra bədəninə su tökər, ardınca saçın köklərinə suyun keçməsini və başın dərisinə suyun çatdığını yəqin edənə qədər əlləri ilə saçlarını aralayar, sonra başına üç dəfə su tökər və sonra bədəninin qalan hissəsini yuyardı. Aişə (Allah ondan razı olsun) dedi: Mən və Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bir qabdan qüsl alardıq, hər birimiz həmin qabdan su götürərdik.

http://www.sunnah.global/hadeeth/az/show/3316